


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 186 (23.598)

29 oktyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

* * *

Erməni silahlı qüvvələrinin raketlərlə hücumu nəticəsində Bərdədə həlak olanlara Allahdan rəhmət diləyir, ailələrinə başsağlığı verir, yaralıların şəfa tapmasını diləyirəm. Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara layiqli cavab veriləcək.

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda bildirib.

* * *

Dövlətimizin başçısı oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.

* * *

Prezident İlham Əliyev həmin gün İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Hər sətrindən qələbə əzmi yüksələn müraciətlər tarixi sənədlərdir

### *Qarabağ Azərbaycandır və nida işarəsi*

1988-ci il fevral ayının sonlarını yaxşı xatırlayıram. O gün biz və bizdən yaşlı nəslin insanlarının çöhrələrində bir çox mənalar ifadə edən baxışlar da yaxşı yadımdadır. Hələ Qarabağda bir neçə dəfə olmuş, bu qədim diyarı yaxından tanıyan insanların söhbətləri... Buraya ermənilərin nə vaxt köçdüklərini xatırladan lövhə... Hadisələr başlanan kimi həmin lövhənin "yoxa çıxması"... Həmin dövrdən 1990-cı ilə qədər bir mərhələ təşkil edən proseslər, bu proseslərdə 70 il hökm sürmüş böyük bir imperiyanın sonunun yaxınlaşmasına səbəb olan hadisələr... Elə 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək ermənipərəst qüvvələrin açıq-aşkar əl-ayaq açmaları bu proseslərin ifadəsi deyildimi?

...Bir qədər sonra, 1990-cı ildə ulu öndər Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtması, Ordubad şəhərinin mərkəzində rayon sakinləri ilə görüşündə dedikləri də yadımdan çıxmayıb: Mərkəzi Komitənin birinci katibi işləyərkən ilk dəfə bura gələndə diqqətimi cəlb edən nə oldu? Ermənilərin yaşadığı kəndlərlə azərbaycanlıların yaşadığı kəndlər arasında yer-göy fərqi var. Özlərini "yazıq", "məzlum" adlandıran ermənilərə orada yaradılmış şərait SSRİ-nin ən inkişaf etmiş respublikalarının kənd yaşayış məntəqələrindən seçilmirdi. Bunu Azərbaycan hökuməti etməmişdimi? Onda nə üçün onlar Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılmasını istəyirdilər? (Moskvada dərc olunan "Arqumenti i faktı" qəzeti sabahısı gün bu görüş barədə geniş məlumat dərc edəcəkdi).

...Məlum hadisələr başlayandan bu il sentyabr ayının 27-dək müşahidə etdiyimiz proseslər mənfur erməninin iyrənc simasını, xarakterini (xaraktersizliyini) ortaya qoydu. Bu dövrdə BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun fəaliyyətini də gördük. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı 4 qətnamə qəbul etsə də, kağız üzərində qalıb – ermənilərin o qətnamələrin heç üzlərinə də baxmamaları belə böyük beynəlxalq təşkilatın özünə təhqir deyildimi? Hələ ATƏT-in Minsk qrupu... Bu bədnam təşkilat Azərbaycana guya "xeyirxahlıq missiyası yerinə yetirməyə" gələn ilk vaxtlarda xalqımız ona necə inanırdı? O öz sələhiyyətlərindən necə istifadə etdi bəs? Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının xalqa müraciətindən: ***"Bəs nədir Minsk qrupunun fəaliyyəti? İşğalçıya təzyiq edə bilibmi? Yox! Təzyiq etmək istəyibmi? Yox! Dəfələrlə mən onların qarşısında məsələ qaldırmışdım: əgər məsələnin həllini görmək istəyirsinizsə, sanksiyalar tətbiq edin Ermənistana. Sizin əlinizdədir. Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə – nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün?"*** Azərbaycan dövləti isə həmişə olduğu kimi öz humanist xarakterilə problemin ədalətli yolunu üstün tutdu və əks-hücum proseslərinin şiddətlə gücləndiyi bir vaxtda yenə beynəlxalq hüquq və normalara tam əməl edir. Bunu bütün dünya görür. Demokratiyadan dəm vuranlar bunu görmürlərmi? İnsan hüquqlarının erməni vandalları tərəfindən kobudcasına, vəhşicəsinə pozulmasına nə üçün belə biganə yanaşılır? Dövlətlərə münasibətdə bu qədər bitərəflilik olarmı? Bu, əslində, bitərəflilik deyil, açıq-aşkar erməniləri müdafiə etməkdir.

Suallar çoxdur. Cavabsa bir: Qarabağ Azərbaycandır!

### *İndiki vəziyyətdə yeganə günahkar Ermənistan rəhbərliyidir*

Ölkə başçısının müxtəlif televiziya kanallarına, xəbər agentliklərinə, diplomatik korpusların təmsilçilərinə verdiyi müsahibələrin, yüksək tribunalardan məsələnin ədalətli həlli ilə bağlı göstərdiyi arqumentlərin leytmotivi birdir: Biz işğalda olan torpaqlarımızın sülh yolu ilə alınmasını istəyirik. 30 ildir ki, bu istək, az qala hər gün səsləndirilir. Ölkənin sadə vətəndaşından tutmuş ən yüksək vəzifəlisinə qədər hər bir azərbaycanlı bu yolu ən düzgün yol sayır. Çünki müharibə ölüm deməkdir, evlərin atasız, qardaşsız, anaların, bacıların gözüyaşlı qalması deməkdir. Elə 1988-ci ildən üzübəri nə qədər evlərə qara tabutlar gətirilib. İkinci bir tərəfdən Azərbaycanın heç kimin torpağında gözü yoxdur. Cənab Prezident xalqa ikinci müraciətində bunu əsaslı dəlillərlə xatırlatdı: ***"Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır... Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir, kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə – danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişik, ədalətli mövqe göstərmişik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb".***

Gəlin o azğınlaşmış təcavüzkarın bəyanatlarına baxaq. (Buna bəyanat yox, sərsəmləmə demək daha dəqiq olar). Deyir ki, "Qarabağ Ermənistanındır" və əlavə edir: Azərbaycan "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Onda Azərbaycan Ordusu kimlə vuruşur? Və Azərbaycan Prezidentinin BMT kürsüsündən Ermənistanın yeni müharibəyə hazırlaşması barədə söylədikləri öz təsdiqini tapdıqdan sonra da çirkin niyyətlərindən əl çəkməyən erməni burnunun ucundan qabağı görürmü? Günahsız insanların qanına susamış bu təlxək başını tamamilə itirib?

Ermənistanın siyasi rəhbərinin yuxarıda qısaca sadaladığımız sərsəmləmələrinin sayını artıra bilərik. Ancaq buna ehtiyac duymuruq. Bütün bunlar onu göstərir ki, indiki vəziyyətdə günahkar, ölkə başçısının da dediyi kimi, Ermənistan rəhbərliyidir. Bunu dünya da görür.

### *Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik*

Oktyabr ayının 9-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqa müraciətində dedi: Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Sözsüz ki, bu, indiki dövrdür. Nəyin nə vaxt ediləcəyi dövr. Bir qədər geriyə qayıdaq. Prezidentin xalqa hər sətrindən qələbə əzmi yüksələn müraciətləri tarixi sənədlərdir, hər bir azərbaycanlı bu müraciətləri əzbər bilir və yeni müraciət gözləyir. Çünki hər müraciətin ya əvvəlində, ya da sonunda 30 ildir, həsrətində olduğumuz, işğaldan azad edilmiş ünvanlar sadalanır. Azərbaycan bayrağının sancıldığı ünvanlar sürətlə artır. Hələlik işğal altında olan hər bir torpaqda o bayrağın bir daha yüksələcəyi gün isə uzaqda deyil.

Təbii ki, bütün bunlara – nəyin nə vaxt ediləcəyinə erməni vandalları və onların havadarları inanmırdılar. Qondarma "Dağlıq Qarabağ respublikası"na "prezident" seçirdilər, iqamətgahı Şuşaya köçürürdülər, Ermənistan baş naziri Şuşada, Cıdır düzündə rəqs edirdi. Başları insan ağlına sığmayan cinayətlərə qarışmış erməniləri – bu "məzlum" xalqı isə bəzi beynəlxalq təşkilatların dedikləri "bu münaqişənin hərbi həlli yoxdur" qənaətinə inandıra bilmişdilər.

Bu gün görünən dağa bələdçi lazım deyil.

### *Bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır?*

Haradan olmağı sirr deyil. Həmin texnikaların hansı dövlətlərdən gətirildiyi, göndərildiyi bəllidir. Ancaq gördüyümüz odur ki, onlar bu silahları ya qoyub qaçır, ya da müzəffər Azərbaycan əsgəri, necə deyərlər, onun başına vurub əlindən alır. Burada Şah İsmayıl Xətainin bir deyimini xatırlayıram: Qılınc həmin qılıncdır, qol həmin qol deyil. Ölkə başçısının daha bir müraciətində bu müddət ərzində erməni vandallarının şanlı ordumuz tərəfindən sıradan çıxarılmış və qənimət kimi ələ keçirilmiş hərbi silah-sursat barədə dəqiq rəqəmləri xalqımızın diqqətinə çatdıraraq demişdir: ***"Hər dəfə bu sualı verirəm və verəcəyəm. Cavab gələnə qədər verəcəyəm. Haradandır bu pul, haradan? Müşahidəçilər, vasitəçilər, politoloqlar, ermənipərəstlər desinlər ki, haradan gəlir? Bizim pulumuz var, hər şey şəffaf. Nə qədər pulumuz var Azərbaycan xalqı bilir, dünya bilir, hər kəs bilir. Öz pulumuzla alırıq. Heç kimdən də asılı deyilik. Bu, borc içində olan, müflisləşən ölkə haradan alıbdır? Ermənistanın xarici dövlət borcu, təxminən, 8 milyard dollardır. Valyuta ehtiyatları isə 1,5 milyard dollardır. Özü də bu, sərbəst vəsait deyil, bu, bank rezervləridir. Onlardan istifadə edə bilməz. Əgər istifadə etsə, onların dırnaqarası valyutası da kəlləmayallaq gedəcəkdir. Kim verib sənə bu qədər silahı? Niyə soruşan yoxdur?"***

### *Bu günün həqiqəti: yeni reallıqlar*

"Hər sətrindən qələbə əzmi yüksələn müraciətlər tarixi sənədlərdir". Bunu yazının başlığına çıxarmağım nəyə əsaslanır? Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının xalqa hər bir müraciəti təkcə son 30 illik tariximiz deyil. Bu, qədim Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixidir. Bu, Azərbaycana, Qarabağa beynəlxalq siyasi aləmin baxış tarixidir. Gələcək nəsillərə ötürülməli, öyrənilməli, nəticə çıxarılmalı tarixdir. Həm də bu günün tarixidir. Reallıqları bütün çılpaqlığı, dərin arqumentləri ilə ortaya qoyan tarixdir: ***"Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır. Amma biz nəyi görürük? Biz öz torpaqlarımızı işğalçılardan azad etməyə başlayanda, görün nələr baş verir. Nə qədər böyük təzyiq göstərirlər Azərbaycana hər tərəfdən. Əl-ayağa düşdülər. Bəs nə oldu? İyirmi səkkiz il bu məsələni belə süründürə-süründürə elə bil ki, həll edirdiniz. Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın!"***

***P.S.*** *Bu nida, həm də cənab Prezidentin hələ düşmən tapdağı altındakı torpaqlarımızın tezliklə qaytarılacağı günü qarşılayacağımızın yaxında olduğuna hesablanıb.*

**Muxtar MƏMMƏDOV**

# Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır



*Türkiyə Cümhuriyyətinin yaranmasının 97-ci ildönümü tamam olur.*

1919-cu ildən başlayaraq Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu zəfərin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermişdir. 1923-cü il oktyabrın 29-da isə müstəqil Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri uğurlu olmuş, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmiş, dahi şəxsiyyət ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlərdə sürətlə inkişaf etmişdir. Ulu öndərimiz deyirdi: ***"Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlərboyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıbdır"***.

Bu gün yüksək səviyyəli əməkdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə yüksəlmişdir. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması Azərbaycan və Türkiyə xalqları arasında əlaqələrin davamlı inkişafına şərait yaradır. Ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq yeni inkişaf mərhələsinə qədəm qoymuş ikitərəfli münasibətlərimiz bütün istiqamətlər üzrə genişlənir. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır, bütün sahələrdə əlaqələr genişlənir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr Azərbaycan və Türkiyənin dünyada söz sahibi olmasına imkan yaradıb.

Böyük öndər Mustafa Kamal Atatürkün ***"Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"***, ümummilli liderimiz Heydər Əliyevin ***"Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir"*** kəlamlarına əsaslanan Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz qardaşlıq münasibətləridir. Qarşılıqlı bağlar ölkələrimizi həmişə bir-birinə doğma edib. Hazırda qardaş Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ortaya qoyduğu qəti və birmənalı mövqe, haqq işimizə verdiyi tərəddüdsüz dəstək həmrəyliyimizin bariz nümunəsidir.

Bu gün ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında iqtisadi-ticarət, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir. Ötən il avqustun 15-də Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa hava dəhlizi açılmışdır. Naxçıvan Muxtar Respublikasında Türkiyəyə məxsus sahibkarlıq subyektləri fəaliyyət göstərir. Muxtar respublikanın ali təhsil ocaqlarında yüzlərlə Türkiyə vətəndaşı müxtəlif ixtisaslar üzrə təhsil alırlar. "Erasmus+ və Mövlana" proqramları çərçivəsində Naxçıvan Dövlət Universiteti Türkiyənin 40-a yaxın universiteti ilə tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqaviləsi imzalamışdır. 2017-ci ildə Türkiyə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına əsasən Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlərin tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı yaradılması, eləcə də ötən il Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin istifadəyə verilməsi də ikitərəfli münasibətlərin uğurlu nəticəsidir.

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi də məmnunluq doğurur. Ötən il Türkiyənin Qars şəhərində 15 ölkənin iştirakı ilə keçirilən "Qış təlimi-2019" adlı beynəlxalq hərbi təlimdə ölkəmizi Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları təmsil etmişdir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən bu il Naxçıvanda Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilmişdir. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilmişdir. Ölkələrimiz arasındakı əməkdaşlığı yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir" fikirlərinə əsaslanan ikitərəfli münasibətlərimiz bu gün ölkə Prezidentləri tərəfindən uğurla davam etdirilir, strateji tərəfdaşlığımız daha da möhkəmlənir. Birgə hərbi təlimin keçirilməsi də Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının nümunəsidir"***.



2020-ci il fevralın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və həmin gün Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmiryol nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər, bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından da çox əhəmiyyət kəsb edir.

Soykök, milli və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə əlaqələri böyük perspektivə malikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Xalqlarımızın iradəsindən və ortaq milli-mənəvi dəyərlərindən qaynaqlanan Azərbaycan-Türkiyə birliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bu gün ən yüksək səviyyədədir. Dünyada bənzəri olmayan bu dostluq və qardaşlıq münasibətləri regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa xidmət edən, siyasi və iqtisadi proseslərə istiqamət verən mühüm amilə çevrilmişdir... Əminəm ki, gələcək nəsillərə ən böyük əmanətimiz olan sarsılmaz Azərbaycan-Türkiyə birliyi və qardaşlığı "Bir millət, iki dövlət" şüarına uyğun olaraq bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək və güclənəcəkdir"***.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Milli ruh dəyərlərin, dəyərlər isə vətənpərvərliyin əsasını təşkil edəndə

***"...Heç şübhəsiz ki, bu gün sahib olduğumuz ən ali dəyərimiz milli dövlətçiliyimizdir. Xalqımızın sabitlik və rifah içində yaşamasıdır. Ona görə də milli mədəni irsimizə qayğı göstərməklə yanaşı, dövlət müstəqilliyimizin də qədrini bilməli, onu qorumalı, ölkəmizin inkişafı və tərəqqisi yolunda çalışmalıyıq"***.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin söylədiyi bu fikirlər milli dəyərlərə bağlılığın gözəl nümunəsi sayılmaqla, həm də gələcək inkişafımızın istiqamətini özündə əks etdirir.

Milli dəyərlərə konkret nəzəri tərif verməkmümkün olmasa da, bəşər mədəniyyətinin tarixi inkişaf yolunu araşdıran alimlər sübut edir ki, istənilən cəmiyyətdə dəyərlərin yaradıcısı xalqdır. Təbii ki, hər bir xalqın tarixi və etnoqrafiyası, mədəniyyəti, cəmiyyətin inkişafına baxışı fərqli və yaxud qismən fərqli olsa da, bu, özlüyündə ümumi bir dəyərlər sistemi formalaşdırır. Məhz bu sistemdə onun dövlətçilik ənənələri formalaşır, həyata baxışı zənginləşir, gələcək inkişafının təməli qoyulur. Buna görə də milli dəyərlər məfhumunu dar çərçivədə düşünmək mümkünsüzdür. Dünya xalqlarının bir çoxunda müəyyən zamanlarda bu və ya digər dərəcədə dəyərlərin aşınması prosesi gedib. Və bu prosesdə yalnız milli və mənəvi dəyərlərə mental bağlılıq xilas yolu kimi seçilib. Yadımıza salaq, ötən əsrin 90-cı illərində SSRİ-nin süqutundan sonra postsovet məkanında müstəqilliyini elan etmiş respublikaların, demək olar ki, hamısında, eləcə də Azərbaycanda Qərb dəyərlərinin kütləvi idxalı üçün heç bir maneə qalmamışdı. O zaman çoxları bu təhlükəli tendensiyanın fərqinə varmırdı. Qapalı imperiyanın süqutundan sonra sərhədlərin açılması, digər ölkələrlə əlaqələrin yaradılması təkcə iqtisadi və mədəni baxımdan deyil, eyni zamanda sosial, dini, mənəvi tərəfləri ilə də diqqət çəkirdi. Artıq qloballaşma dövrü başlamışdı. Əslində, qloballaşma fərqli tarix və mədəniyyətlərə, dəyərlərə malik ölkələrin birbiri ilə qarşılıqlı münasibətləri baxımından çox əhəmiyyətli inteqrativ prosesdir. Ancaq dəyərlərin belə, siyasiləşdiyi müasir dünyada qloballaşma bəzən elə bir vasitəyə çevrilir ki, yeniliklərin qəbulu mental bağlılıqların sıradan çıxması hesabına baş verir. Doğrudur, bu proses ani olmur, bəzən onilliklərə başa gəlir. Ancaq fakt ondadır ki, mənəvi aşınma, bəzən dəyərlərin qorunması və təbliğindən daha sürətlə gedir.

Məlumdur ki, ötən əsrin sonlarında Naxçıvan Muxtar Respublikasının blokadaya salınması buradakı ictimai-siyasi və iqtisadi vəziyyəti ağırlaşdırmışdı. Ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı və buradakı fəaliyyəti nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılmış, ən əsası isə bu qədim Azərbaycan diyarı qorunub saxlanılmışdır. Görkəmli dövlət xadimi burada fəaliyyət göstərdiyi dövrdə təkcə hərbi, siyasi, iqtisadi sahədə deyil, eyni zamanda milli dövlətçilik ideyalarının həyata keçirilməsində əvəzsiz xidmətlər göstərmişdir. Hər şeydən əvvəl, dahi şəxsiyyət onu gözəl bilirdi ki, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdən keçir. Çünki yalnız milli dövlət ərazinin, maddi sərvətlərin deyil, həm də milli kökə bağlı dəyərlərin qorunmasına xidmət edir. Buna görə də ulu öndər Heydər Əliyevin Naxçıvanda müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində atdığı tarixi addımlar, qəbul etdiyi mühüm qərarlar gələcəyimizin milli dövlətçilik təməlləri üzərində inkişaf etdirilməsini şərtləndirdi. Milli dövlət isə onunla səciyyələnir ki, kimlərinsə milli dəyərləri öz qanı bahasına qoruyub saxlamasına ehtiyac qalmır. Çünki o, elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və inkişaf etdirilir.

Milli dəyərlərin mühafizəsi, yaşadılması və təbliğ olunması yalnız milli düşüncənin ön sırada olduğu zaman mümkün ola bilər. Yalnız milli ruha hakim rəhbər öz xalqının keçmişini qorumaq və gələcəyə daşıya bilmək gücünə qadirdir. Bu gücün təməlində isə xalqa bağlılıq, onun tarixinə, mədəniyyətinə böyük sevgi durur. Çünki istənilən xalqın mədəniyyətində onun illərdən bəri formalaşmış düşüncə və təfəkkürü, dünyaya baxış tərzi, yaradıcılığı, adət-ənənələri, dövlətçilik irsi, dəyərləri toplanır. Elə bu dəyərlərdən irəli gəlir ki, bu gün Azərbaycan xalqı 30 ilə yaxındır, işğal altında olan torpaqlarını azad etmək üçün bir yumruqtək birləşib. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz Vətənimizin yağı tapdağı altında qalan torpaqlarını addım-addım özünə qaytarır. Burada əsas amillərdən biri, hətta birincisi odur ki, ordumuz nə üçün vuruşduğunu, xalqımız nəyin uğrunda mübarizə apardığını gözəl bilir. Torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək, həm də ata-babalarımızın bizə əmanət etdiyi Vətənin bir parçası, dəyəridir. Yəni torpaq, ərazi, sadəcə, əkib-becərmək, yaşamaq üçün deyil, həm də bir xalqın formalaşmasını, onun tarixini, mədəni irsini, dəyərlərini formalaşdırdığı, yaşatdığı müqəddəs bir yerdir. Bu baxımdan bu gün Azərbaycan həm də öz dəyərlərini işğaldan azad edir.

Ümummilli lider Heydər Əliyev gənc nəslin milli ruhda tərbiyə olunmasını əsas vəzifə kimi irəli sürmüşdür: ***"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz"***.

Bəli, həqiqətən, milli ruha, ənənələrə sahib olmayan gənclik vətənpərvər ola bilməz. Hər birimiz qürur duyuruq ki, Azərbaycanın bugünkü qəhrəmanlıq tarixini də məhz bu ruha sahib VƏTƏNPƏRVƏR OĞULLAR yazır!

**Səbuhi HƏSƏNOV**

# *"XII Beynəlxalq Dünya Dili Türkcə"* onlayn simpozium keçirilib

*Türkiyə və Azərbaycan arasında elmi əlaqələrin inkişafı çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olaraq Ankara Qazi Universiteti rektorluğunun rəhbərliyi ilə Türkiyə Böyük Millət Məclisinin açılışının 100-cü ildönümünə həsr olunmuş "XII Beynəlxalq dünya dili türkcə" onlayn simpoziumu təşkil edib.*

Hər il ənənəvi olaraq Türkiyənin bir sıra universitetlərində keçirilən bu simpoziumda müxtəlif ölkələrdən tanınmış dilçi-alimlər iştirak edir.

Simpozium Türkiyə Böyük Millət Məclisinin açılışının 100 illiyinə həsr olunsa da, ölkəmizin Qarabağ uğrunda apardığı ədalətli müharibə bu konfransın istiqamətini, bütövlükdə, Azərbaycana – Qarabağa yönəldib, müxtəlif məzmunlu elmi məruzələrdə Azərbaycana böyük bir sevgi nümayiş etdirilib. Qazi Universitetinin professoru İhsan Kalenderoğlunun rəhbərlik etdiyi simpoziumun təşkilat komitəsi tərəfindən iclas salonlarının, bütünlüklə, Azərbaycanın şəhərlərinin adları ilə adlandırılması böyük qürur hissi oyadıb.

Üç gün davam edən simpoziumda AMEA Nəsimi adına Dilçilik İnstitutunun, Bakı Dövlət Universitetinin əməkdaşları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasından Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Qalibə Hacıyeva və AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dissertant Sahab Əliyeva da iştirak ediblər.

Dosent Qalibə Hacıyeva "Onomastik vahidlərin öyrənilməsində tarixi dialektizmlərin rolu", AMEA Naxçıvan Bölməsinin əməkdaşı, Sahab Əliyevanın "Naxçıvan elmi mühitində Güney Azərbaycan üzrə ümumtürkoloji müstəvidə aparılan dil araşdırmaları" adlı məruzələri simpozium iştirakçılarında çox böyük maraq oyadıb.

Simpoziumda beynəlxalq elmi müstəvidə Azərbaycan həqiqətlərinin, Qarabağın tarixi Azərbaycan torpaqlarının olması ilə bağlı məlumatların diqqətə çatdırılması gələcəkdə türkdilli xalqların bu sahədə elmi əməkdaşlığının daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Xəbərlər şöbəsi**

*Ulu öndər Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad son illər misli görünməmiş dərəcədə inkişaf yolu keçmişdir. Bu gün rayonun ən ucqar yaşayış məntəqələri olan Nəsirvaz, Nürgüt, Xurs, Əlhi, Tivi, Bist, Parağa, Üstüpü, Baş Dizə, Çənnəb, Gənzə və digər kəndləri öz müasir görkəmi ilə göz oxşayır. İnşa olunan məktəblər, kənd və xidmət mərkəzləri, tibb ocaqları, çəkilən yollar rayon sakinlərinin rifah halının daha da yüksəldilməsinə xidmət edir. Buraya rabitə, elektrik, qaz təsərrüfatı infrastrukturlarının insanlara fasiləsiz surətdə xidmət göstərildiyini də əlavə edə bilərik.*



*İnkişaf edən bölgələrimiz*

# Yenilikləri ilə gözoxşayan ORDUBAD

Muxtar respublikamızın hər yerində olduğu kimi, Ordubad rayonu üçün də müstəqillik illəri bir-birindən uğurlu gəlir. Təkcə ötən il rayonda baş vermiş yenilikləri sadalamaq kifayətdir ki, nail olunmuş inkişaf və tərəqqinin miqyası anlaşılsın. Dəstə kəndində inşa olunan 900 şagird yerlik məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, əsaslı surətdə yenidən qurulan 550 metr uzunluğundakı kənddaxili yollar, Dırnıs kəndində istifadəyə verilən "Allahşükür məscidi", Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması, Ordubad şəhərində, Şəhriyar qəsəbəsində kanalizasiya və içməli su xətlərinin çəkilməsi, Ordubad Rayon İcra Hakimiyyətinin və şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin binalarının əsaslı surətdə yenidənqurmadan sonra istifadəyə verilməsi 2019-cu ilin ərməğanlarından olub. Bu ilin ötən ayları ərzində rayon ərazisində 25 müxtəlif təyinatlı obyektin tikintisi və yenidən qurulması başa çatdırılıb, 34 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib. Bu ilin yanvarında isə Vənənd kəndində musiqi məktəbi, kənd və xidmət mərkəzləri, məktəb binası, həkim ambulatoriyası, Dəstəbaşı-Vənənd avtomobil yolu, Darkənddə qədim su dəyirmanı istifadəyə verilib. Bu il Dəstə Radio-Televiziya Ötürücü Stansiyası binasının tikintisinin başa çatdırılması informasiya və rabitə xidmətlərinin daha keyfiyyətlə göstərilməsini təmin edib.



Onu da qeyd edək ki, bu ilin yazından başlayaraq Nüsnüs kəndində məktəb binası əsaslı surətdə yenidən qurulur, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası üçün binalar inşa olunur, Nüsnüs-Əndəmic avtomobil yolu əsaslı surətdə yenidən qurulur, Yuxarı Əndəmic kəndində isə kənd və xidmət mərkəzləri üçün binalar, Tivi kəndində yeni su elektrik stansiyası tikilir. Ordubad şəhərində isə 1 nömrəli tam orta məktəbin binası əsaslı surətdə yenidən qurulur, şəhər stadionu yenidən inşa edilir, gənc ailələr üçün nəzərdə tutulmuş zirzəmisi ilə birlikdə səkkizmərtəbəli, 28 mənzilli yaşayış binasında son tamamlama işləri görülür. Qədim Cümə məscidində əsaslı surətdə təmir-bərpa işləri həyata keçirilir, Unus kəndində isə kənd və xidmət mərkəzlərinin tikintisinə başlanılıb. Bu ilin yanvar-sentyabr aylarında Ordubad rayonu üzrə əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 15 min 272 kvadratmetr yaşayış sahəsi də istifadəyə verilib.

Hər kəsə məlumdur ki, investisiya qoyuluşları hər bir sahənin dinamik inkişafını sürətləndirən amillərdəndir. Rayonda infrastruktur quruculuğu tədbirləri çərçivəsində bu ilin yanvar-sentyabr aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 47 milyon 722 min manat dəyərində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların dəyəri 46 milyon 190 min 500 manat olmaqla, əsas kapitala yönəldilmiş investisiyanın 96,8 faizini təşkil edib.

Rayonda içməli su və kanalizasiya xətlərinin tikintisi də bu ilin ötən ayları ərzində davam etdirilib. Ordubad şəhərində, Şəhriyar qəsəbəsində, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində bu məqsədlə mühüm layihələr icra edilməkdədir. Rayonda iqtisadi və sosial sahələrin inkişafı istiqamətində aparılan tədbirlər 2020-ci ilin yanvar-sentyabr aylarında da davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin yanvar-sentyabr aylarında sənaye məhsulu 0,8 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,4 faiz, kənd təsərrüfatının məhsulu 3,1 faiz, informasiya-rabitə xidmətlərinin dəyəri 2,7 faiz artıb. Bu dövrdə rayonda dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 9 istehsal və xidmət obyekti yaradılıb, 10 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilir. Ümumilikdə, yanvar-sentyabr aylarında sənaye məhsulunun dəyəri 6 milyon 930 min 100 manat olub.





Bəhs olunan dövr ərzində Ordubad rayonunda əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli məhsullar hesabına ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, daxili bazarda məhsul bolluğu yaradılıb. Rayonda 2020-ci ilin məhsulu üçün 3937 hektar sahədə əkin aparılıb. Əkin sahələrinin 1994 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 618 hektarını tərəvəz bitkiləri, 15 hektarını bostan bitkiləri, 580 hektarını kartof, 30 hektarını birillik otlar, 280 hektarını cari ildə əkilmiş çoxillik otlar, 420 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edib. 1 oktyabr 2020-ci il tarixə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsindən 5630 ton məhsul yığılıb. Məhsuldarlıq orta hesabla 28,2 sentner olub. Kartof sahələrindən 8573 ton, tərəvəz sahələrindən 5289 ton, meyvə bağlarından 2180 ton, barverən üzüm bağlarından isə 82 ton məhsul toplanılıb.

Ordubad rayonunda heyvandarlığın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. Əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib, Vənənd kəndində istifadəyə verilən baytarlıq məntəqəsi üçün müasir iş şəraiti yaradılıb. 1 oktyabr 2020-ci il tarixə rayonda 11204 baş qaramal olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 262 baş çoxdur. Sözügedən dövrdə rayonda 77772 baş qoyun və keçi olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1599 baş çoxdur. Heyvanların baş sayının artması heyvandarlıq məhsulları istehsalında da artıma səbəb olub. Belə ki, 2020-ci ilin yanvar-sentyabr aylarında Ordubad rayonunda diri çəkidə 2317 ton ət, 5311,3 ton süd istehsal edilib. Ümumiyyətlə, bu ilin ötən aylarında rayonda 28 milyon 662 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Ordubad rayonunda müasir yolnəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində də tədbirlər uğurla davam etdirilir. Bu il Xanağa- Ağrı-Dizə-Vənənd kənd və Darkənd avtomobil yolunun yenidən qurulması başa çatdırılıb, Culfa-Ordubad magistral avtomobil yolunun və Nüsnüs-Əndəmic kənd avtomobil yolunun yenidən qurulması davam etdirilib. Yanvar-sentyabr ayları ərzində avtomobil nəqliyyatı sahəsində yük və sərnişin daşınmasından, bütövlükdə, 3 milyon 409 min 200 manat gəlir əldə edilib.

İki il bundan əvvəl Ordubad şəhərində yeni Rabitə Evinin istifadəyə verilməsi əhaliyə göstərilən informasiya və rabitə xidmətlərinin kəmiyyət və keyfiyyət baxımından xeyli yaxşılaşmasına səbəb olub. Bu ilin yanvar-sentyabr aylarında rayon üzrə informasiya və rabitə xidmətlərinin dəyəri 3 milyon 493 min manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur. Ümumi xidmətlərin 87 faizi isə mobil rabitənin payına düşür. Elektroenergetika sektorunda davamlı olaraq yeni güclərin yaradılması, infrastrukturun müasir standartlar səviyyəsində yenilənməsi istiqamətində də Ordubad rayonunda mühüm işlər həyata keçirilir. On il bundan əvvəl 22 meqavatlıq Biləv Su Elektrik Stansiyası istifadəyə verilib. Hazırda gücü 36 meqavat olan Ordubad Su Elektrik Stansiyasının və 15,6 meqavat olan Tivi Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası Ordubad rayonunda da işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaradıb. Bu ilin yanvar-avqust aylarında Ordubad rayonunda muzdla işləyənlərin ortaaylıq əməkhaqqı 501,7 manat olub, 24 yeni iş yeri yaradılıb. Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini də yüksəldib, əmtəə dövriyyəsinin həcmini genişləndirib. 2020-ci ilin yanvar-sentyabr aylarında rayonda pərakəndə əmtəə dövriyyəsi 84 milyon 266 min 200 manat olub ki, bunun 3 milyon 759 min 900 manatını iaşə əmtəə dövriyyəsi təşkil edib. Bu müddətdə əhaliyə göstərilən 14 milyon 695 min 900 manatlıq ödənişli xidmətlərin dəyərinin 2 milyon 781 min 800 manatı məişət xidmətinin payına düşüb. Əhaliyə göstərilən xidmətlərin yüksəldilməsi məqsədilə Nüsnüs və Yuxarı Əndəmic kəndlərində xidmət mərkəzlərinin tikintisi isə davam etdirilir.

Rayonda səhiyyə xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə də mühüm işlər həyata keçirilir. Doqquz il bundan qabaq istifadəyə verilmiş 66 çarpayılıq Ordubad Rayon Mərkəzi Xəstəxanası, kəndlərimizdəki tibb məntəqələri əhalinin sağlamlığının keşiyində dayanmaqdadır. Bundan əlavə, Ordubad rayonunda əhalinin sayının 50 min nəfəri keçməsi ilə əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 7 yanvar tarixli Sərəncamı ilə Ordubad Rayon Uşaq Xəstəxanası yaradılıb, bu səhiyyə ocağı üçün binanın yenidən qurulması davam etdirilir.

*Bir sözlə, Ordubad Rayon Statistika İdarəsindən əldə etdiyimiz faktların təhlili göstərir ki, Ordubad rayonunda 2020-ci ilin ötən ayları ərzində bütün sahələrdə dinamik inkişaf təmin edib, əhalinin rifah halı yaxşılaşdırılıb.*

**Abbas SEYİD**
**Azərbaycan Respublikasının Əməkdar jurnalisti**

## Quruculuq tədbirləri rayonun simasını dəyişdirir



***Cari ildə də Şərur rayonunda abadlıq, quruculuq tədbirləri sürətlə davam etdirilir.***

Heydər Əliyev prospektində Mədəniyyət Sarayının, 6 mərtəbəli, 40 mənzilli ictimai yaşayış binasının tikintisində son tamamlama işləri görülür. Yeni avtovağzalın, Saat Meydanının, 7 yaşayış məntəqəsini birləşdirən 21 kilometr uzunluğunda avtomobil yolunun tikintisi davam etdirilir, ictimai yaşayış evləri, idarə və təşkilatların fəaliyyət göstərdiyi inzibati binalar əsaslı təmir olunur.



Quruculuq tədbirləri kənd yaşayış məntəqələrini də əhatə edir. Şəhriyar kəndində 224, Qaraburcda 120 şagird yerlik tam orta məktəblərin, digər sosial obyektlərin, Yuxarı Daşarx kəndində Bayraq Meydanının tikintisində işlər sürətlə gedir. Bütün bunlar isə rayon sakinlərinə göstərilən böyük qayğı kimi qiymətləndirilir, şərurluların qurub-yaratmaq əzmini daha da artırır.

## Gələn ilin məhsulunun əsası indidən qoyulur

Muxtar respublikamızda ərzaq bolluğu yaradılması üçün dövlət qayğısının ildən-ilə artırılması, ayrılan vəsait, özəl bölmə təmsilçilərinin, daha çox ailə təsərrüfatlarının mütəşəkkil şəkildə iştirakı qarşıya qoyulmuş vəzifələrin həllini asanlaşdırıb. Bütün bunların nəticəsi kimi, Şərur rayonunda da kənd təsərrüfatının bütün sahələrinin, o cümlədən strateji məhsul olan taxılçılığın inkişafında mühüm irəliləyişlərə nail olunur.

Ötən ilin payızında və bu ilin yazında əkinçilikdə taxılçılıq yenə də üstün istiqamət kimi saxlanılaraq 4 min 865 hektar sahədə taxıl əkilmişdi. Bunun da 4 min 315 hektarı buğda, 550 hektarı arpa idi. Sahələrdən orta məhsuldarlıq 39,4 sentner olmaqla, 19 min 185 ton məhsul tədarük edilməsi taxılçılarda böyük stimul yaradıb. Odur ki, havaların əlverişli keçməsindən istifadə edən taxılçılar gələn ilin məhsulunun əsası qoymaq üçün şum aparılmasına və əkinə başlayıblar. Qeyd edək ki, şumdan əvvəl sahələr mineral gübrələrlə münbitləşir, toxumlar təmizlənir və dərmanlanır, mütərəqqi metod olan şırım üsulu ilə əkinə üstünlük verilir.

Əkində "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə gətirilən texnikalardan səmərəli istifadə olunur.

Aldığımız məlumata görə, indiyədək kəndlərdə taxıl əkini üçün nəzərdə tutulmuş sahələrin yarısından çoxu şumlanıb, taxıl əkini sürətlə davam etdirilir.

Zəmilərdə hökm sürən yüksək iş ahəngi göstərir ki, rayonda taxıl səpini kampaniyası optimal müddətdə başa çatdırılacaq və gələn ilin bol məhsulu üçün möhkəm zəmin yaradılacaqdır.

**Elman MƏMMƏDOV**

*Qəlbimizdəki vətənpərvərlik hisslərini coşduran, bizi qələbə əzminə kökləyən hərbi marşlar kiçik yaşlarımızdan hər birimizin ruhuna hopub, yaddaşına yazılıb, sanki... Hansımıza doğma deyil ki, bu misralar?*

***Vətən məni yetişdirib bu ellərə yolladı,***
***Bu torpağa qurban deyib, Allaha ismarladı.***
***“Boş oturma, çalış, – dedi, xidmət eylə Vətənə.***
***Südüm sənə halal olmaz, sən baş əysən düşmənə”.***



# Naxçıvan Qarnizonunun Hərbi Orkestri zəfər marşına hazırlaşır

Belə musiqilər təkcə zabit və əsgərlərimizə deyil, qadınlı-kişili, uşaqlı-böyüklü hər kəsə Vətənə sevgi, el-obaya məhəbbət, yurda bağlılıq, yağı düşmənə nifrət hisslərini aşılayır. İnsanların vətənpərvər ruhda yetişməsində



böyük rol oynayan hərbi marşlar, həm də ordunun nizama salınmasına, əsgər və zabitlərin istər hərbi, istərsə də mənəvi-estetik tərbiyəsinə xidmət edən səfərbəredici gücə malik bir təbliğat vasitəsidir.

Hərbi musiqilər tarixdə ilk dəfə mütəşəkkil ordular qurularkən müharibələr baş verəndə savaşa girən döyüşçüyə qeyri-adi bir döyüş əzmi vermək, əsrlərboyu ölüm-dirim mübarizəsində qılınc oynadıb, qalxan tutan cəngavərləri ruhlandırmaq üçün yaradılıb, bəzən də düşməni lərzəyə salmaq üçün istifadə olunub.

Elə mövzu ilə bağlı söhbətim də Naxçıvan Qarnizonu Hərbi Orkestrinin rəisi Cavanşir İskəndərovladır. Əvvəlcə hərb musiqisinin ordu tarixində yeri barədə söhbət açan Cavanşir müəllim deyir ki, döyüşçülərin ruh yüksəkliyini artırmaq üçün hər zaman hərbi musiqilərə müraciət edilib. Bu musiqilərin səsləndirilməsi düşmən üzərində qələbəni şərtləndirib. Savaş başlanmazdan əvvəl qələbə əzmini gücləndirən musiqilər ifa edilib, döyüşçülər hücuma ruhlandırılıb. Ordu musiqisi haqqında məlumatlar Azərbaycan ədəbiyyatının qəhrəmanlıq dastanlarında – “Kitabi-Dədə Qorqud”da, “Koroğlu”da öz əksini tapır. Belə musiqilər insanlarda vətənpərvərlik, milli mənlik, mübarizlik, qəhrəmanlıq hisslərini daha da gücləndirir, hər bir döyüşçünü düşmən üzərində qələbəyə çağırır.

Döyüş musiqilərinin mənşəyi haqqında danışan həmsöhbətim onu da bildirir ki, dünya ordularında ilk hərbi orkestrin yaradılması faktı türk xalqlarına məxsusdur. XIV-XIX əsrlərdə Osmanlı ordusunun tərkibində zurna, boru, gərənay, davul, nağara, təbil və zınqırovlu qaval kimi musiqi alətlərindən ibarət hərbi musiqi bölmələri yaradılıb. “Mehtər” adlanan bu bölmələr dövlət əhəmiyyətli statusa malik olub və həmişə rəsmi dövlət tədbirlərində, təntənəli mərasimlərdə çıxış edib. Bununla da, dünyada hərbi orkestr mədəniyyətinin təməli qoyulub və bu xidmət növü bütün dünya ordularında tətbiq edilməyə başlayıb. Artıq XVIII əsrdə hərbi orkestrlərdə fleyta, klarnet, truba, valtorna və litavra adlı böyük təbillərdən istifadə edilməyə başlanılıb.

“Hərbi orkestr Azərbaycanın ordu quruculuğunda hansı inkişaf yollarından keçib?” – sualını Cavanşir İskəndərov belə cavablandırır: “Bildiyimiz kimi, Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusunun yarandığı ilk vaxtlarda, mürəkkəb tarixi bir şəraitdə orduda hərbi orkestrlərin qısa müddətdə təşkili tarixi hadisə kimi yaddaşımıza yazılıb.

Ümummilli liderimizin rəhbərliyi altında aparılan ordu quruculuğu digər xidmətlərlə yanaşı, hərbi orkestr xidmətinin də daha müasir səviyyədə inkişafına təkan verdi. O illərdə qısa müddət ərzində Quru Qoşunlarında, Hərbi Hava və Dəniz Qüvvələrində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində hərbi orkestrlər yaradıldı.

1918-ci ildə dövlət müstəqilliyini elan edən Azərbaycan Demokratik Cümhuriyyətinin Silahlı Qüvvələri həmin il sentyabrın 15-də Bakını erməni daşnaklarından təmizləyir və 1919-cu ildə Bakıda Cümhuriyyət Ordusunun ilk hərbi paradı keçirilir. Həmin paradda təntənəli keçidi təkmilləşdirilmiş milli hərbi orkestr müşayiət edir. Cəmi bir il sonra Azərbaycanı işğal edən sovet hökumətinin bərqərar olduğu illərdə milli hərbi orkestr sıradan çıxarılır. 1991-ci il oktyabrın 9-da Azərbaycanda “Milli özünümüdafiə qüvvələri haqqında” Qanun qəbul edilir. Beləliklə, yenidən Azərbaycan Milli Ordusunun təməli qoyulur. Təxminən, on ay sonra 1992-ci ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Hərbi orkestr xidmətinin yaradılmasına qərar verilir və elə həmin ilin iyul ayında müstəqil Azərbaycan ilk hərbi orkestr xidməti fəaliyyətə başlayır.

Naxçıvanda isə hərb musiqisi ötən illər ərzində çətin və şərəfli bir yol keçərək ayrı-ayrı sənət adamlarının çiyinlərində günümüzə qədər gəlib çatıb. Əvvəlcə müxtəlif məktəblərin tərkibində yaradılan nəfəsli alətlər orkestri 1993-cü ilin iyun ayında Naxçıvan Muxtar Respublikasındakı “N” hərbi hissədə hərbi orkestr kimi təşkil olunaraq fəaliyyətə başlayıb. 10 nəfər üzvü olan bu orkestri formalaşdırmaq üçün hərbi hissələrdən musiqi qabiliyyətli, nəfəsli alətlərdə ifa etməyi bacaran əsgərlər seçilir. Yeni yaradılan hərbi orkestri qurmaq və mütəşəkkil şəklə salmaq ağır zəhmət tələb edir. Orkestrin ilk çıxışı 1993-cü il sentyabr ayının 15-də 705 saylı hərbi hissənin yaradılması gününə həsr olunan tədbirdə Azərbaycanın Dövlət Himninin səslənməsi ilə yadda qalıb. Naxçıvanda keşməkeşli yollardan keçən hərbi orkestr bu gün Naxçıvan Qarnizonunun Hərbi Orkestri kimi fəaliyyət göstərməkdədir.

Orkestrin fəaliyyəti ilə bağlı danışan həmsöhbətim deyir ki, keçirilən rəsmi qarşılanma mərasimlərində ölkəmizə qonaq gələn rəsmilərin çıxışlarımızı razılıqla qarşılaması təkcə bizim xidmətimizə deyil, bütün Azərbaycan Ordusuna verilən yüksək dəyərdir. Kollektivin çıxışları hər zaman yüksək qiymətləndirilib və müxtəlif mükafatlara layiq görülüb. 2017-ci il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə keçirilən Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradda iştirakı isə hərbi orkestrin fəaliyyət tarixinə ən unudulmaz anlar, möhtəşəm uğurlu çıxış kimi yazılıb.

Ümumiyyətlə, deyim ki, hərbi orkestrlərin çıxışlarında Azərbaycan, dünya klassiklərinin əsərlərinin, hərbi-vətənpərvərlik mahnılarının, marşların səsləndirilməsinə xüsusi yer veririk. Azərbaycanın tanınmış bəstəkarlarından dahi Üzeyir Hacıbəyovdan tutmuş Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Səid Rüstəmov, Emin Sabitoğlu və başqalarının vətənpərvərlik mövzusunda bəstələdiyi əsərləri və marşları ifa edirik.

Nizam-intizamda hərbi musiqinin rolundan bəhs edən Cavanşir İskəndərov deyir ki, hərbi orkestrlər təkcə orduda hərbi marşlar ifa etmək üçün deyil. Bu xidmət növü həm də orduda nizam-intizamın, təlim-tədrisin mütəşəkkilliyini təmin etmək üçün vacib bir vasitədir. Təsəvvür edin ki, təntənəli marşla keçid zamanı yüzlərlə adam eyni anda addımlamalıdır. Bunu, ancaq hərbi orkestrin və ya təbillərin yardımı ilə yerinə yetirmək mümkündür. Deməli, hərbi musiqi həm də ordunun nizam-intizamı üçün mühüm əhəmiyyətə malikdir. Eyni zamanda bütün rəsmi dövlət tədbirlərində, rəsmi və diplomatik ali qonaqların qarşılanmasında hərbi orkestrin üzərinə böyük məsuliyyət düşür. Bu gün hərbi orkestr varislik ənənələrinə əsaslanaraq hərb tariximizin önəmli səhifələrini qürurla yaşadır. Hərbi orkestrin hər bir üzvü, o cümlədən mən də tarixi ənənələrimizi yaşatmaqla, Vətənə, xalqa, dövlətə şərəflə xidmət etməyi özümüzə borc bilirik. Hərbi orkestrin üzvləri ordumuzun Qarabağda yazdığı şanlı tarixlə qürur duyur və böyük sevinclə zəfər marşına hazırlaşırıq.

✍ **Gülcamal TAHİROVA**

# Aqrar sığorta sahəsində işlərin həcmi artır

***Muxtar respublikamızın iqtisadiyyatında mühüm paya malik olan aqrar sektor regionda ərzaq təhlükəsizliyinin təmini və əhali məşğulluğu məsələlərinin həllində əsas yer tutur. Bu baxımdan aqrar sektorun inkişaf etdirilməsi və mövcud torpaq, iqlim resurslarından səmərəli istifadə olunması üçün aqrar sığorta münasibətlərinin də əhəmiyyəti böyükdür. Buna görə də fermer və torpaq mülkiyyətçilərinin biznes maraqlarının qorunması məqsədilə muxtar respublikamızda həyata keçirilən aqrar sığortanın genişləndirilməsi üzrə verilmiş tapşırıqların icrasına diqqət artırılır.***



Kənd təsərrüfatı hər cür təbii hadisələrə, eləcə də insanların səbəb olduğu texnogen qəzalara qarşı çox həssasdır. Müxtəlif təbii fəlakətlər – zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, dolu, həmçinin zərərvericilərin vurduğu ziyanlar, yoluxucu xəstəlik və zəhərlənmələr, ilan və həşərat sancmaları, zəhərli otlar və yemlərdən zəhərlənmə, kütləvi zəhərlənmələr nəticəsində ölüm, vəhşi heyvanların hücumu, habelə yanğın və üçüncü şəxslərin hərəkətləri nəticəsində kənd təsərrüfatına xeyli miqdarda zərərlər dəyməsi və məhsuldarlığın aşağı düşməsi baş verir. Bu isə aqrar sahə ilə məşğul olan insanların ilboyu çəkdiyi zəhmətin nəticəsiz qalmasına səbəb olur ki, aqrar sığortanın mahiyyəti də belə gözlənilməz hadisələrdən həm bitkiçilik, həm də heyvandarlıq məhsulları istehsalına dəyə biləcək zərərlərin əvəzinin ödənilməsidir.

Aqrar sığortanın həyata keçirilməsinə hazırda ciddi diqqət yetirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi, könüllü sığortanın tətbiqi və səyyar xidmətin əhatə dairəsinin genişləndirilməsi, insanların maarifləndirilməsi ilə yanaşı, sığorta bazarında aqrar sektorun xüsusi çəkisinin artırılması kimi mühüm vəzifələr qoyulub. Ötən dövrdə bu vəzifələrin icrası istiqamətində görülmüş işlər muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinə müsbət təsir edib. Aqrar sığortanın predmetinə daxil edilən kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları üzrə buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, limon, tütün, üzüm, badam, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar üzrə isə 1 yaşdan 7 yaşa qədər südlük inək və camışlar, xırdabuynuzlu heyvanlar, həmçinin akvakultura məhsulu üzrə balıqların sığortasının təşkili bu sahədə çalışan təsərrüfatçıların işinə müsbət təsir edir. Bu həm də sadalanan sahələrdəki məhsulların istehsalında artım, bazardakı qiymətlərin sabitləşməsi və istehsalı genişləndirmək üçün şəraitin təmin edilməsində də əhəmiyyətlidir. Həyata keçirilən bütün işlər, eyni zamanda sığorta bazarının gücləndirilməsinə də xidmət edir.

Hazırda muxtar respublikamızda aqrar sığorta üzrə aparılan işlərin bu sahədə ötən illərə nisbətən xeyli irəliləyişlər olduğunu göstərir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidmətindən aldığımız məlumata görə, cari ilin 8 ayının nəticələrinə əsasən mal-qara sığortası üzrə bağlanılmış müqavilələrin sayında artım qeydə alınıb. Bu müddətdə iribuynuzlu heyvanların sığortalanması üzrə 305, xırdabuynuzlu heyvanların sığortası üzrə isə 777 müqavilə bağlanılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 241 və 618 ədəd artım deməkdir. Əkin sahələrinin sığortasına gəldikdə isə torpaq mülkiyyətçiləri ilə 771 müqavilə bağlanılıb ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 146 ədəd çoxdur. Fermer və torpaq mülkiyyətçilərinin sərəncamında olan kənd təsərrüfatı texnikalarının sığortası da diqqət mərkəzində saxlanılıb və bu dövrdə 66 texnika sığortalanıb. Muxtar respublikamızda gəlirli sahə olan arıçılığa diqqətin artırılması arı ailələrinin də sığortalanmasını gündəmə gətirir. Bəhs olunan dövrdə 45 arı ailəsi sığortalansa da, gələcəkdə bu sahədə daha çox artım olacağı şübhəsizdir.

Aqrar sahə üzrə sığorta işi könüllü sığorta qaydasında həyata keçirilir. Ona görə də bu vacib sahədə verilmiş tapşırıqların uğurla yerinə yetirilməsi üçün maarifləndirmə işləri ilə yanaşı, baş vermiş sığorta hadisələrinə görə qanunun tələblərinə uyğun olaraq sığorta ödənişlərinin verilməsi də əsas şərtlərdəndir. Bu mənada, vətəndaşların sığorta xidmətlərinə birbaşa çıxışının təmin edilməsi və onlara yaşadıqları yerdən çıxmadan müqavilələrin bağlanılmasına kömək məqsədilə yaradılmış səyyar sığorta xidmətinin ötən dövrdəki fəaliyyəti diqqətçəkicidir. Baş vermiş sığorta hadisələrinə görə dəymiş zərərlərin vaxtında ödənilməsi sığortalıların bu sahəyə olan marağını artıran amil kimi diqqətdə saxlanılıb. Belə ki, bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti tərəfindən mal-qara sığortası üzrə 31, taxıl sahələrinin sığortası üzrə isə 5 hadisəyə görə vətəndaşlara ödənişlər verilib. Bütün bunlar da aqrar sahədə fəaliyyət göstərən vətəndaşların sabit gəlir əldə etməsinə şərait yaradır.

✍ **Əli CABBAROV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 807